## *ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ PEDAQOJİ TƏCRÜBƏ*
## *ПЕДАГОГИЧЕСКАЯ ПРАКТИКА В ВУЗЕ*
## *PEDAGOGICAL PRACTICE AT THE HİGHER SCHOOLS*

*UOT378*

**_Əsmət İdris qızı İsmayılxanova_**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Ümumi pedaqogika kafedrasının dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
https://orcid.org/0000-0002-1151-4440

# TƏCRÜBƏÇİ TƏLƏBƏLƏRİN PEŞƏKAR MÜƏLLİM KİMİ FORMALAŞMASINDA PEDAQOJİ TƏCRÜBƏNİN ROLU

**_Асмет Идрис гызы Исмаилханова_**
*доцент кафедры Общая педагогика*
*Азербайджанского Государственного Педагогического Университета,*
*доктор философии по педагогике*

# РОЛЬ ПЕДАГОГИЧЕСКОЙ ПРАКТИКИ В СТАНОВЛЕНИИ СТУДЕНТОВ-СТАЖЁРОВ КАК ПРОФЕССИОНАЛЬНЫХ ПЕДАГОГОВ

**_Asmet Idris Ismayilkhanova_**
*associate professor of the department of General pedagogy at*
*Azerbaijan State Pedagogical University*
*doctor of philosophy in pedagogy*

# THE ROLE OF PEDAGOGICAL PRACTICE IN THE TRANSFORMATION OF PRACTISING STUDENTS TO PROFESSIONAL TEACHERS

**Xülasə.** Müəllif yazmış olduğu məqaləsində təcrübəçi tələbələrin peşəkar müəllim kimi formalaşmasında pedaqoji təcrübənin rolu haqqında ətraflı məlumat vermişdir.

O, qeyd edir ki, səriştəli, peşəkar müəllim hazırlığında pedaqoji təcrübənin çox əhəmiyyətli rolu vardır. Müəllimlik sənətində bir çox praktik bacarıqlar və vərdişlərə yiyələnmək üçün pedaqoji təcrübə ilk təcrübə məktəbi olmaqla əsil sınaq meydanıdır. Burada əsas məqsəd bütün imkanlardan bacarıqla yararlanmaq və eyni zamanda yüksək təcrübə toplamaqdır.

Pedaqoji təcrübənin əsas funksiyalarından bəhs edən müəllif ilk öncə pedaqoji təcrübənin təhsilləndirici, tərbiyəedici və inkişafedici funksiyalarını qeyd etmişdir. Bu funksiyaların meydana çıxmasında pedaqoji təcrübədə nəzəriyyə ilə təcrübənin əlaqəsini, nəzarəti, korreksiyaediciliyi, pedaqoji əməkdaşlığı və ünsiyyəti göstərmişdir.

Daha sonra müəllif bu proseslərin digər funksiyaların meydana çıxmasına səbəb olduğunu qeyd etmişdir ki, bunlara nəzəriyyə ilə təcrübənin əlaqələndirilməsi, nəzarət və korreksiyaedici, adaptasiyaedici funksiyalardır.

**_Açar sözlər:_** *pedaqoji təcrübə, səriştə, peşəkarlıq, metodika, adaptasiya, ünsiyyət, demokratiya, pedaqoji proses, korreksiya, nəzarət*

**Резюме.** В статье автор дал подробные сведения о роли педагогического опыта в становлении студентов-стажёров как профессиональных педагогов.

По словам автора, педагогический опыт играет очень важную роль в подготовке грамотного, профессионального учителя. Главная цель – умело воспользоваться всеми имеющимися возможностями при одновременном наборе практического опыта.

В качестве основных функций педагогической практики автор в первую очередь упомянула образовательную, воспитательную и развивающую функции, назвав связь теории с практикой, контроль, согласование, педагогическое сотрудничество и общение в педагогической практике как факторы, способствующие проявлению этих функций.

Автор также отметила, что эти процессы приводят к возникновению других функций, включая соединение теории с практикой, контрольные, согласовательные и адаптирующие функции.

***Ключевые слова:*** *педагогический опыт, компетентность, профессионализм, методика, адаптация, общение, демократия, педагогический процесс, согласование, контроль.*

**Summary.** Author provided a detailed information about the role of teaching experience in the development of practising students as professional teachers.

According to the author, pedagogical experience plays a very important role in the development of a competent, professional teacher. The main goal is to expertly take advantage of all the available opportunities simultaneously gaining practical experience.

Author primarily mentioned the educational, disciplinary and developmental functions of pedagogical practice, as well as the connection between theory and practice, control, adjustment, pedagogical cooperation, and communication in pedagogical practice as factors that contribute to the emergence of these functions.

She also noted that these processes lead to the emergence of other functions, including the connection of theory with practice, control, adjustment and adaptive functions.

***Keywords:*** *pedagogical experience, competence, professionalism, methodology, adaptation, communication, democracy, pedagogical process, adjustment, control.*

Səriştəli, peşəkar müəllim hazırlığında pedaqoji təcrübənin çox əhəmiyyətli rolu vardır. Müəllimlik sənətində bir çox praktik bacarıqlar və vərdişlərə yiyələnmək üçün pedaqoji təcrübə ilk təcrübə məktəbi olmaqla əsil sınaq meydanıdır. Bu səbəbdən pedaqoji təcrübənin yüksək səviyyədə qurulması və təşkili gələcəyin savadlı, peşəkar müəllimlərində bir çox bacarıqların yaranması üçün münbit şərait yaradır. Burada əsas məqsəd bütün imkanlardan bacarıqla yararlanmaq və eyni zamanda yüksək təcrübə toplamaqdır. Təlim, tərbiyə, təhsil və onların idarə olunması proseslərinin mərkəzində qərarlaşan pedaqoji təcrübə öz növbəsində təhsil və tərbiyənin idarəedilməsinin bütün funksiyalarını özündə ehtiva edir. Bu funksiyaların həyata keçirilməsi gələcəyin səriştəli müəllim kadrlarının peşəkarlığının formalaşdırılmasında mühüm əhəmiyyətə malikdir. Bütün bunlar təcrübəçi tələbələrlə keçirilən pedaqoji təcrübənin məzmununun dərk edilməsi, mahiyyətinin açılmasında aşkarlayıcı və istiqamətverici amillər kimi özünü göstərməklə bərabər, bütöv bir sistemin təşkilinə şərait yaradır. Elmi-pedaqoji ədəbiyyatlarda pedaqoji təcrübənin təhsilləndirici, tərbiyəedici və inkişafetdirici olmaqla üç vacib funksiyası qeyd edilmişdir. İndi bu funksiyaların əsas mahiyyətini nəzərdən keçirək.

**1-Təhsilləndirici funksiya:** Təhsilləndirici funksiya iki qarşılıqlı səviyyədə özünü göstərməkdədir:

a) təcrübəçi tələbə öyrədən, təhsilverən vəzifəsini yerinə yetirərək təhsilalanlara (məktəblilərə) elmin sirlərini öyrədirlər.

b) təhsilverən (təcrübəçi tələbə) həm məktəblilərə elmin sirlərini öyrədir, həm də özləri öyrənirlər. Pedaqoji təcrübədə təcrübəçi tələbələr həm öyrədən, həm də öyrənən kimi çıxış edirlər.

Ötən illərin təcrübəsi göstərir ki, təcrübəçi tələbələr nə qədər nəzəri biliklərə sahib olsalar da, məktəb təcrübəsində daha çox praktiki bilikləri öyrənməyə meyl göstərirlər. Praktiki biliklərin öyrənilməsinə daha çox ehtiyac vardır. Tələbələrin universitetlərdə psixologiyaya, pedaqogikaya, ixtisas metodikasına, eyni zamanda, ixtisaslarına dair qazandıqları biliklər sınaq dərslərində təlim prosesini daha səviyyəli şəkildə təşkil etməyə kifayət etmir, onlarda səriştəlilik, praktiki bacarıqların səviyyəsi aşağı olur. Belə olan təqdirdə tələbələrin çox hissəsi vaxtlarının əksər hissəsini yeni təlim metodlarını, metodikanı, pedaqoji və metodiki biliklərini zənginləşdirməyə deyil, əvvəllər öyrəndikləri ixtisas biliklərini daha dərindən öyrənməyə sərf edirlər. Bu halda pedaqoji təcrübənin öyrədici, yəni təhsilləndirici funksiyası daha çox təcrübə-

çi tələbələrin öyrəndikləri nəzəri biliklərin dərinləşdirilməsinə xidmət göstərir. Ali təhsil müəssisələrində pedaqoji təcrübə müəssisənin tədris planlarında əsas ixtisas fənləri, fənlərin tədrisi metodikası, psixologiya və pedaqogika fənlərinin tədrisindən sonra gəlir. Yəni təcrübəçi tələbələr istər orta məktəblərə, istərsə də məktəbəqədər təhsil müəssisələrinə standartları minimum mənimsəyərək gedirlər. Artıq tələbələr müəllim və təcrübəçi kimi peşə və ixtisas sahəsində müəyyən biliklərə sahibdirlər. Doğrudur, onların nəzəri biliklərində müəyyən kəsirlər, çatışmazlıqlar, praktiki bacarıqlarında səriştəsizliklər hələ də müəyyən mənada özünü göstərəcəkdir. Burada pedaqoji təcrübənin üzərinə böyük məsuliyyət düşür, belə ki, onun əsas vəzifəsi bu tip çatışmazlıqları, kəsirləri ya azaltmaq, ya da tamamilə aradan qaldırmaqdan ibarətdir.

**2. Tərbiyəedici funksiya:** Adından da göründüyü kimi, pedaqoji təcrübənin əsas məzmunu və mahiyyəti tərbiyəedici funksiya kimi mühüm bir vəzifə daşıyır. Təcrübəçi tələbələrin ümumtəhsil müəssisələrinə müəllim olaraq getməsi, pedaqoji təcrübə zamanı onların qarşısına hansı pedaqoji tələblərin qoyulduğunu başa düşməsi pedaqoji təcrübənin tərbiyəvi gücünü daha da artırır. Tələbələrin özlərini əsil müəllim kimi hiss etmələri, hərəkət və davranışlarına, geyiminə, nitqinə daha çox diqqət etmələri, öz şəxsində əsl müəllimə xas olan keyfiyyətlərin tərbiyə edilməsinə can atması, başqalarının gözü ilə özünə baxması kimi xüsusiyyətlərin yaranması tələbələrdə müəllim şəxsiyyətinə xas keyfiyyətlərin dərinləşməsinə, dostlarına, yoldaşlarına, şagirdlərə daha da tələbkar və həssas olmalarına şərait yaradır. Ümumtəhsil müəssisələrinə təcrübəçi tələbə kimi gələnlər burada müəllim olduqlarını anlayır, özünü əsl müəllim kimi aparmağa çalışırlar. Dünənə kimi auditoriyada müəllimlər qarşısında tələbə olan, hərəkətində, davranışında bir az müstəqil, bir az çılğın olan gənclər pedaqoji təcrübə zamanı ona müəllim kimi yanaşıldığını, məktəblilər tərəfindən "müəllim" kimi xitab edildiyini görür. Bu zaman onlar hərəkət və davranışlarında, danışıqlarında, geyimlərində müəyyən həddi gözləməyə, müəllimə xas müsbət keyfiyyətləri nümayiş etdirməyə çalışırlar.

Pedaqoji təcrübə tələbələrdə müəllim üçün aşağıdakı bir sıra şəxsi keyfiyyətlərin formalaşmasına səbəb olur:

- təcrübəçi tələbə öz şəxsi keyfiyyətlərini nəzarət altına alır;
- metodist tərəfindən ona tapşırılan bütün işlərə məsuliyyətli münasibət göstərir;
- sinfin bütün şagirdləri ilə canlı ünsiyyət yaradır;
- şagirdlərin çətinlik çəkdikləri işlərdə onlara yardım göstərir;
- sinifdən və məktəbdənkənar tədbirlərdə fəal iştirak edir.

Pedaqoji təcrübə zamanı təcrübəçi tələbələrin üzləşdikləri çətinliklərdən biri də müxtəlif xarakterli şagirdlərlə necə ünsiyyətə girə bilmək problemidir. Hər bir təcrübəçi tələbə bunu bacarmalıdır, əgər bacarmırsa metodistindən kömək istəməlidir. Çünki, şagirdlərlə ünsiyyət qura bilməyən müəllim öz peşəsində heç vaxt müvəffəqiyyət qazana bilməz.

Pedaqoji təcrübə zamanı tələbələr özünəinam, özünün davranışına nəzarət, özünümüşahidə, özünütəlqin kimi müsbət keyfiyyətlərin formalaşdırılmasına diqqət etməlidirlər. Belə olan təqdirdə pedaqoji təcrübənin tərbiyəvi təsirləri daha da güclənir.

Pedaqoji təcrübə zamanı demokratik ünsiyyət müəllim-şagird əlaqələrini tənzimləyir və onlar arasında dostluq münasibətləri formalaşır.

**3- İnkişafetdirici funksiya:** Təcrübəçi tələbələrin pedaqoji-psixoloji, elmi-nəzəri, idraki qabiliyyətlərinin inkişaf etdirilməsində pedaqoji təcrübə mühüm əhəmiyyət daşıyır. Dörd aylıq təcrübə müddətində təcrübəçi tələbələr hər gün səhər tezdən məktəbə gəlir, məktəblilərlə canlı ünsiyyətdə olur, məktəblilər tərəfindən onlara ünvanlanan suallara cavab verirlər. Belə olduğu təqdirdə təcrübəçi tələbədə məsuliyyət hissi artır, onlar öz bilik və bacarıqlarını artırmaq üçün daha səylə çalışırlar. Təcrübəçi tələbə başa düşür ki, müəllim həm hörməti, həm yüksək nüfuzu o vaxt qazanır ki, o öz ixtisas fənnini hərtərəfli, dərindən bilir, eyni zamanda bildiklərini şagirdlərə öyrətməyi bacarır.

Təcrübələr göstərir ki, istənilən şagird öz fənninin incəliklərini bilməyən müəllimlərə heç vaxt hörmət etmir. Savadsız müəllimlər nəinki tək şagirdlər, həm də müəllim həmkarları arasında nüfuz qazana bilmirlər. Belə olduğu təqdirdə məktəblilərin müəllimlik peşəsinə inamı azalır, gələcək ixtisas seçimində onlara mənfi təsir edir. Pedaqoji təcrübə təcrübəçi tələbələrin

bilik və bacarıqlarını artırmasına, öz üzərində əzmlə çalışmalarına, səriştəlilik, peşəkarlıq bacarıqlarının, vərdişlərinin təkmilləşdirmələrinə münbit şərait yaradır. Təcrübə zamanı məktəbin yenilikçi müəllimlərinin dərslərini dinləmələri, onların fəaliyyətini diqqətlə izləmələri, peşəkar pedaqoq, psixoloq və metodistlərin verdikləri məsləhətlərə tələbələrin əməl etmələri onların peşəkarlığını artırır, səriştəlilik təsəvvürlərini dərinləşdirir, onları gələcəyin bacarıqlı, savadlı müəllimi kimi formalaşdırır. Şagirdlərlə işləmək, təlim məşğələləri aparmaq, pedaqoji prosesin iştirakçısı olmaq mövcud imkanları dərinləşdirir, təsəvvürləri reallığa çevirir. Pedaqoji təcrübə zamanı yiyələndikləri əlavə biliklər tələbələrin elmi dünyagörüşlərini artırır, peşəkar müəllim kimi inkişafına səbəb olur. Təcrübəçi tələbələr təlim prosesində və sinifdənkənar tədbirlərdə mütəmadi problemlərlə qarşılaşırlar. Ona görə də tələbələr bu problemləri həll etməyə can atırlar.

Səriştəli müəllim olmaq üçün təcrübəçi tələbələrə öz ixtisasını dərindən bilmək kifayət etmir, çünki, məktəblilərin hər bir məlumatı öyrənməyə can atmasından başqa, bəzən qəsdən təcrübəçi tələbəni yoxlamaq məqsədi ilə onlara mövzudan əlavə sual verməsi hallarına da rast gəlinir. Təcrübəçi tələbənin səriştəsizliyi, cavabını bilmədiyi sualların onlara ünvanlanması şagird-müəllim münasibətlərində anlaşılmazlıqlar yaradır. Odur ki, təcrübəçi tələbə geniş elmi dünyagörüşə malik olmalı, öz ixtisasları ilə bağlı əlavə məlumatlar toplamağa çalışmalıdırlar. Yalnız pedaqoji təcrübə zamanı tələbələr müəllimlik sənətinin heç də asan olmadığını anlayırlar. Yəni müəllim olmaq dərsliklərdəki mövzunu öyrənib şagirdlərə çatdırmaq demək deyildir. Digər peşələrlə müqayisə edilməyəcək dərəcədə çətin, mürəkkəb və məsuliyyətli peşədir. Müəllimlik peşəsi axtarıcılıq, yaradıcılıq tələb edir. Əsl müəllim olmaq üçün çox çalışmağa, daim yenilikləri izləməyə, kreativ ideyalar axtarmağa, digər novator müəllimlərin fəaliyyətini araşdırmağa və onların iş prinsipindən yararlanmağa can atmalıdır. Pedaqoji təcrübə yalnız təhsilləndirici, tərbiyəedici və inkişafetdirici funksiyanın reallaşdırılması ilə məhdudlaşa bilməz. Təcrübə zamanı nəzəriyyə ilə praktikanın əlaqəsi, korreksiyaedicilik, nəzarət, pedaqoji əməkdaşlıq, ünsiyyət kimi proseslərin mövcud olduğu hallarda bir çox funksiyalar da meydana çıxır ki, bunların bir neçəsini nəzərdən keçirmək vacibdir. Çünki, bu funksiyalar da sistem yaradan komponentlər kimi pedaqoji təcrübənin qarşısında duran vəzifələrin yerinə yetirilməsində əlverişli yer tutur.

**1. Nəzəriyyə ilə təcrübənin əlaqələndirilməsi funksiyası.** Bildiyimiz kimi, pedaqoji təcrübə müəllim hazırlığında böyük imkanlara malikdir. O baxımdan mənimsənilmiş nəzəri biliklərin praktikaya tətbiq edilməsi üçün əsl sınaq meydanıdır. Təcrübə zamanı nəzəriyyə ilə təcrübənin əlaqələndirilməsi reallaşır. Dörd aylıq pedaqoji təcrübə müddətində tələbələrdə peşə keyfiyyətləri yaranır və inkişaf edir. Eyni zamanda, pedaqoji təcrübə zamanı təşkilatçılıq, didaktik, perseptiv, kommunikativlik kimi bacarıqlar praktiki şəkildə özünü göstərir.

Təcrübəçi tələbələr nəzəriyyə ilə təcrübəni əlaqələndirir, cəmiyyətin gələcəyi kimi tərbiyə etdiyimiz nəslin təlim-tərbiyə vəzifələrini vəhdətdə həyata keçirməyi bacarırlar. Pedaqoji təcrübə zamanı tələbələrin işlərini elə qurmaq lazımdır ki, həyata keçirilən bütün tədbirlər rəngarəng və dinamik olsun. Bunun üçün metodist müəllimlərin üzərinə böyük məsuliyyət düşür.

**2. Nəzarət və korreksiyaedici funksiya.** Nəzarət və korreksiyaedici funksiya üç istiqamətdə özünü göstərir ki, bunlar aşağıdakılardır:

a) təcrübəçi tələbələrin fəaliyyəti üzərində təcrübə rəhbərlərinin, pedaqoq və psixoloqların, metodistlərin nəzarət və korreksiyaedici funksiyası;

b) pedaqoji təcrübə zamanı tələbənin öz fəaliyyəti üzərində nəzarət və korreksiyaedici işi;

c) təcrübəçi tələbənin təlim, təhsil və tərbiyə prosesində şagirdlərin fəaliyyəti üzərində nəzarət və korreksiyaedici işi;

Hər üç istiqamət təcrübəçi tələbələrin gələcəkdə səriştəli və peşəkar müəllim kimi müsbət keyfiyyətlərə yiyələnməsinə münbit şərait yaradır. Nəzarət və korreksiyaedici funksiya təcrübəçi tələbənin öz biliyini sınaqdan keçirmə qabiliyyətini, məktəblilərlə işləyə bilmək bacarığını inkişaf etdirmək üçün mühüm əhəmiyyət kəsb edir.

Təcrübəçi tələbələr pedaqoji təcrübə zamanı tək biliklərində olan boşluqları doldurmaq, çatışmazlıqlar, səhvləri aradan qaldırmaq üzə-

rində deyil, eyni zamanda hərəkət və davranışlarında, danışıqlarında, nitqində, geyimlərində, xarakterində olan qüsurları üzərində korreksiyaedici işlər aparır, onları düzəltməyə çalışırlar. Bütün bu sadaladıqlarımızdan belə nəticə çıxarmaq olar ki, nəzarət və korreksiyaedici funksiya müəyyən parametrlərin, meyarların gözlənilməsini tələb edən funksiyadır.

**3) Adaptasiyaedici funksiya.** Adaptasiyaedici funksiya pedaqoji təcrübə dövründə tələbələr üçün xüsusi əhəmiyyətə malikdir. Təcrübəçi tələbələrin məktəblə yaxından tanış olması, məktəbin bütün pedaqoji kollektivi ilə, ayrı-ayrılıqda müəllimlərlə, şagirdlərlə yaxın ünsiyyəti, təlim-tərbiyə proseslərində subyekt kimi fəaliyyət göstərməsi və. s. onların müəllimlik peşəsinə adaptasiya olunmalarına mühüm şərait yaradır. Onu da qeyd etmək lazımdır ki, bu prosesdə tək pedaqoji təcrübənin təşkilatçıları olan ali və orta ixtisas təhsili müəssisələrinin kollektivi deyil, pedaqoji təcrübənin keçirildiyi məktəblərin də təsir qüvvəsi böyükdür. Bu prosesdə eyni zamanda, aşağıdakı amilləri də mühüm rol oynayır:

- məktəbdə sağlam mühitin mövcud olması;
- hər bir fənn müəlliminin öz işinə məsuliyyətlə yanaşması;
- daim yenilik axtarışında olmaları;
- şagirdlər arasında demokratik davranış tərzinin təşkil edilməsi;
- məktəblərdə istər rəhbərlik, istərsə də müəllimlər tərəfindən təcrübəçi tələbələrə diqqət və qayğı göstərilməsi;
- məktəbin əsil təhsil-tərbiyə ocağı kimi fəaliyyət göstərməsi və s.

Təcrübəçi tələbələrin bu cür müsbət psixoloji mühitdə təcrübə keçmələri, təlim-tərbiyə işində yaxından iştirak etmələri onlarda müəllimlik peşəsinə marağı, sevgini artırır, müəllimliyə, seçdikləri ixtisasa adaptasiya prosesi güclənir.

Adaptasiyaedici funksiyanın təsir dairəsi yuxarıda sadaladıqlarımızla məhdudlaşmır, eyni zamanda, bu funksiyanın mühüm cəhətlərindən biri də təcrübəçi tələbələrdə müəllimlik peşəsinə, seçdikləri ixtisasa məhəbbət hissini artırır.

Nəhayət onu deyə bilərik ki, pedaqoji təcrübənin düzgün və hərtərəfli təşkil edilməsi, aparılması, ona rəhbərlik, verilən vaxtdan səmərəli və düzgün istifadə edilməsi təcrübəçi tələbələrin seçdikləri ixtisas üzrə səriştəliliyə, peşəkarlığa yiyələnmələrində, gələcəyin ən savadlı, bacarıqlı müəllimi kimi formalaşmasında mühüm rol oynayır. Tələbələr pedaqoji təcrübə zamanı müəllimin hansı mühüm vəzifələr daşıdığını, hansı səviyyədə biliyə malik olmasını, üzərinə hansı məsuliyyətin düşdüyünü, necə bir dünyagörüşə malik olmaq lazım gəldiyini anlayır. Bu ilk sınaq meydanı tələbələrə bütün həyatları boyu yaddan çıxara bilməyəcəkləri bacarıqlar və vərdişlər aşılayır. Bu işdə onlara uğurlar diləyirik!

**Problemin aktuallığı.** Müasir tələbələrin gələcəyin səriştəli müəllimi kimi formalaşmasında pedaqoji təcrübənin səmərəli təşkili universitetlərin qarşısında aktual problem kimi dayanmışdır.

**Problemin elmi yeniliyi.** Tələbələr pedaqoji təcrübə zamanı müəllimin hansı mühüm vəzifələr daşıdığını, hansı səviyyədə biliyə malik olmasını, üzərinə hansı məsuliyyətin düşdüyünü, necə bir dünyagörüşə malik olmaq lazım gəldiyini anlayır. Bu ilk sınaq meydanı tələbələrə bütün həyatları boyu yaddan çıxara bilməyəcəkləri bacarıqlar və vərdişlər aşılayır.

**Problemin praktik əhəmiyyəti**. Məqalə məktəbdə pedaqoji təcrübənin düzgün qurulması baxımından təcrübəçi tələbələrin sınaq dərslərinin səmərəli təşkil etmələrinə köməklik göstərəcəkdir.

**Ədəbiyyat:**


1. Mehrabov, A.O. Səriştəli müəllim hazırlığının problemləri. / A.O. Mehrabov. -Bakı: Elm və təhsil, -2015. -286 s.
2. Mehrabov, A.O. Müasir təhsilin konseptual problemləri. / A.O. Mehrabov. -Bakı: Mütərcim, -2010.
3. Veysova, Z. Fəal-interaktiv təlim. Müəllimlər üçün vəsait. / Z. Veysova. -Bakı: UNİSEF, -2007.
4. İlyasov, M.İ. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri: Monoqrafiya. / M.İ. İlyasov. -Bakı: Elm və təhsil, -2018.


**E-mail:** a.ismayilxanova@gmail.com

**Rəyçilər:** *ped.elm.dok. prof.* **R. L. Hüseynzadə**
*ped.ü.fəls.dok. dos.* **H.A. Cəfərov**
**Redaksiyaya daxil olub:** 03.07.2023